UOT 32:316.77; 32:070; 32.049.5; 32:316.65

ÜLVİYYƏ HAQVERDİ
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Politologiya və siyasi idarəetmə kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru,
ulviyyahagverdi@gmail.com

ƏHALİNİN SİYAHIYAALINMASI PROBLEMİ: TARİX VƏ MÜASİRLİK

DOI: https://doi.org/10.36719/2708-065X/112/265-272

Tədqiqat əhalinin siyahıyaalınmasını dövlətin əhali haqqında sistemli, etibarlı və müqayisəolunan bilik istehsalı mexanizmi kimi nəzərdən keçirir və onun əlverişli demoqrafik şəraitin formalaşdırılması və idarə olunmasındakı rolunu nəzəri və empirik müstəvidə ümumiləşdirir. Məqalədə siyahıyaalma yalnız əhali sayının müəyyənləşdirilməsi kimi deyil, yaş-cins strukturu, ailə vəziyyəti, təhsil və məşğulluq göstəriciləri, peşə tərkibi, dil bilikləri, məskunlaşma formaları və miqrasiya vəziyyəti kimi əsas sosial-demoqrafik parametrlərin müəyyən edilmiş metodoloji prinsiplər əsasında qeydiyyata alınması prosesi kimi təqdim olunur. Nəticə etibarilə məqalə sübut edir ki, əhalinin siyahıyaalınması əlverişli demoqrafik şəraiti avtomatik yaradan mexanizm deyil, onu elmi əsaslarla oxumağa, proqnozlaşdırmağa və idarə etməyə imkan verən strateji sosial idarəetmə alətidir.

Açar sözlər: əhalinin siyahıyaalınması, demoqrafik siyasət, sosial statistika, reyestr əsaslı yanaşma, demoqrafik risklər.

Giriş. Əhalinin siyahıyaalınması dedikdə müəyyən bir vaxt kəsiyində dövlət tərəfindən ölkə ərazisində yaşayan bütün əhalinin say, struktur və əsas sosial-demoqrafik xüsusiyyətlər baxımından tam və sistemli şəkildə qeydiyyata alınması prosesi başa düşülür. Bu proses təkcə insanların sayının müəyyənləşdirilməsi ilə məhdudlaşmır, eyni zamanda yaş, cins, ailə vəziyyəti, təhsil səviyyəsi, məşğulluq durumu, peşə tərkibi, dil bilikləri, yaşayış yeri, miqrasiya vəziyyəti kimi çoxsaylı göstəriciləri də əhatə edir. Siyahıyaalma müəyyən metodoloji prinsiplərə əsaslanır: ümumilik (bütün əhali qruplarını əhatə etməsi), eyni vaxtlılıq (müəyyən edilmiş referens tarix üzrə aparılması), fərdilik (məlumatların hər bir şəxs üzrə toplanması) və məxfilik (fərdi məlumatların qorunması) [14]. Bu baxımdan, siyahıyaalma statistik müşahidənin ən geniş və fundamental forması hesab olunur və dövlətin əhali haqqında etibarlı, müqayisəolunan və uzunmüddətli məlumat bazası formalaşdırmasına xidmət edir.

Əhalinin siyahıyaalınması anlayışını işlətdikdə biz əslində dövlətin cəmiyyət üzərindəki institusional bilik istehsalı mexanizmlərindən birini nəzərdə tutmuş oluruq. Siyahıyaalma nəticələri sosial siyasətin planlaşdırılması, regional inkişaf strategiyalarının hazırlanması, təhsil, səhiyyə, məşğulluq və sosial təminat sistemlərinin təşkili üçün əsas empirik baza rolunu oynayır [6]. Eyni zamanda, bu proses əhalinin sosial strukturunda baş verən dəyişiklikləri, urbanizasiya səviyyəsini, demoqrafik tendensiyaları və sosial bərabərsizliklərin məkan üzrə paylanmasını izləməyə imkan verir. Bu mənada siyahıyaalma yalnız texniki-statistik bir tədbir deyil, cəmiyyətin özünü necə təşkil etdiyini, dövlətin əhalini necə gördüyünü və sosial reallığı hansı kateqoriyalar vasitəsilə ölçdüyünü göstərən mühüm sosial-siyasi alətdir.

Əhalinin siyahıyaalınmasının tarixi inkişaf mərhələləri. Tarixdə əhalinin siyahıyaalınmasına dair ilk nümunələr qədim sivilizasiyalara gedib çıxır və bu proses müasir anlamda statistik fəaliyyət olmasa da, idarəetmə və nəzarət məqsədləri ilə həyata keçirilirdi. Tarixi mənbələrə əsasən, sistemli xarakter daşıyan ən qədim siyahıyaalmalardan biri e.ə. III minillikdə Qədim Misir ərazisində aparılmışdır [4]. Misirdə siyahıyaalma əsasən torpaq sahələrinin, məhsul istehsalının və əhalinin vergi potensialının müəyyənləşdirilməsi məqsədi daşıyırdı. Nil çayının daşması ilə bağlı torpaq bölgüsünün tez-tez dəyişməsi dövlətin əkin sahələrini və bu sahələrdə çalışan əhalini yenidən qeydiyyata almasını zəruri edirdi. Buna görə də əhali haqqında məlumatlar iqtisadi resursların idarə olunması və mərkəzləşdirilmiş hakimiyyətin möhkəmləndirilməsi üçün həyati əhəmiyyət kəsb edirdi. Bu dövrdə siyahıya-

alma daha çox ev təsərrüfatları və əmək qabiliyyətli kişilər üzərində cəmləşirdi, çünki əsas məqsəd vergi və əmək öhdəliklərini düzgün bölüşdürmək idi.

Əhalinin siyahıyaalmasının daha institusional və mütəşəkkil forması isə Antik dövrdə, xüsusilə də Roma İmperiyası dövründə formalaşmışdır. Romada "*census*" adlanan siyahıyaalma e.ə. VI əsrdən etibarən müntəzəm şəkildə aparılırdı və təkcə əhalinin sayını deyil, həm də vətəndaşların mülkiyyətini, sosial statusunu və hərbi xidmətə yararlılıq səviyyəsini müəyyənləşdirirdi. Bu prosesin əsas məqsədi vergi yığımını sistemləşdirmək, ordunun komplektləşdirilməsini təmin etmək və siyasi hüquqların bölgüsünü tənzimləmək idi. Roma cəmiyyətində siyahıyaalma nəticələri vətəndaşların hansı sinfə aid olduğunu, hansı hüquqlara malik olduğunu və dövlət qarşısında hansı öhdəlikləri daşıdığını müəyyən edirdi [2]. Bu baxımdan, əhalinin siyahıyaalınması sadəcə idarəetmə aləti deyil, eyni zamanda sosial iyerarxiyanın və siyasi nizamın qorunmasına xidmət edən əsas mexanizmlərdən biri kimi çıxış edirdi.

Qədim dövrdə əhalinin siyahıyaalınması müasir statistik metodlardan kəskin şəkildə fərqlənirdi və əsasən inzibati-müşahidə xarakteri daşıyırdı. Bu proses adətən yazı bilən məmurlar, kahinlər və ya hökmdarın təyin etdiyi yerli idarəçilər vasitəsilə həyata keçirilirdi. Məsələn, Qədim Misir kimi mərkəzləşmiş dövlətlərdə siyahıyaalma ev təsərrüfatı prinsipi üzrə aparılır, torpaq sahələri, ailə üzvlərinin sayı, mal-qara və istehsal resursları ayrıca qeyd olunurdu. Məlumatlar papirus üzərində və ya daş kitabələrdə saxlanılırdı. Metod baxımından bu siyahıyaalma daha çox sayım və qeydiyyatın kombinasiyasına əsaslanırdı: məmurlar yaşayış məntəqələrini gəzərək evlərdən birbaşa məlumat toplayır, bəzi hallarda isə icma başçıları vasitəsilə ümumiləşdirilmiş göstəricilər əldə edilirdi. Bu üsullar qeyri-bərabər idi, çünki ucqar ərazilər, köçəri qruplar və sosial baxımdan marginal təbəqələr çox vaxt ya natamam, ya da ümumiyyətlə qeydə alınmırdı [5]. Buna baxmayaraq, qədim siyahıyaalmalar tamamilə təsadüfi və plansız deyildi; müəyyən dərəcədə sistemlilik mövcud idi, xüsusilə də dövlət idarəçiliyi inkişaf etmiş cəmiyyətlərdə. Roma İmperiyası nümunəsində siyahıyaalma dövri xarakter daşıyır, müəyyən vaxt intervalları ilə təkrarlanır və hüquqi çərçivəyə salınırdı. Romada "census" xüsusi səlahiyyətli məmurlar olan senzorlar tərəfindən aparılırdı və standartlaşdırılmış kateqoriyalar mövcud idi: vətəndaşlıq statusu, mülkiyyət həcmi, ailə strukturu və hərbi xidmətə yararlılıq [1]. Lakin bu sistemlilik müasir anlamda obyektivlik və tamlıq demək deyildi; siyahıyaalma birbaşa dövlət maraqlarına tabe idi və əsas diqqət vergi verən, hərbi potensial daşıyan və siyasi hüquqlara malik olan əhali qruplarına yönəlirdi. Qadınlar, qullar və qeyri-vətəndaşlar çox vaxt ya ayrıca kateqoriyalarda, ya da dolayı şəkildə qeyd olunurdu. Buna görə də qədim dövr siyahıyaalmaları metod baxımından nisbətən ardıcıl olsa da, məzmun etibarilə seçici, normativ və güclü şəkildə siyasi-iqtisadi məqsədlərlə şərtlənmiş bir xarakter daşıyırdı.

Orta əsrlərdə əhalinin siyahıyaalınması qədim dövrlə müqayisədə daha parçalanmış və qeyri-vahid xarakter daşıyırdı, çünki mərkəzləşmiş dövlət strukturları zəifləyir, feodal münasibətlər ön plana çıxırdı. Buna baxmayaraq, siyahıyaalma praktikası tamamilə yox olmamış, əsasən torpaq mülkiyyəti, vergi və hərbi öhdəliklər kontekstində davam etmişdir. XI əsrdə İngiltərə ərazisində tərtib edilmiş "*Domesday Book*" bu baxımdan ən məşhur nümunələrdən biridir. Bu siyahıyaalma birbaşa əhalinin sayını müəyyənləşdirməkdən çox, torpaq sahiblərini, torpaqdan istifadə formasını, kənd təsərrüfatı resurslarını və vergi potensialını qeydiyyata almağa yönəlmişdi. Hər bir yaşayış məntəqəsi üzrə kimlərin torpağa sahib olduğu, nə qədər əkin sahəsinin mövcud olduğu, neçə kəndli və asılı təbəqənin yaşadığı detallı şəkildə sənədləşdirilirdi [11]. Bu isə əhalinin siyahıyaalınmasının artıq sırf demoqrafik deyil, feodal iqtisadiyyatın idarə olunmasına xidmət edən inzibati mexanizmə çevrildiyini göstərir.

Oxşar proseslər Orta əsrlərin müxtəlif mərhələlərində başqa regionlarda da müşahidə olunur. Bizans İmperiyası ərazisində əhali və torpaq qeydiyyatı əsasən vergi və hərbi sistemlə sıx bağlı idi; kənd icmaları və torpaq sahələri "praktika" və "kadastr" tipli siyahılar vasitəsilə izlənilirdi. Eyni zamanda, Orta əsr İslam dünyasında, xüsusilə xilafətlərin idarə etdiyi ərazilərdə əhali siyahıyaalınması daha çox vergiödəyən müsəlman və qeyri-müsəlman əhalinin (cizyə və xərac kontekstində) müəyyənləşdirilməsinə xidmət edirdi [9]. Şərqi Asiyada, o cümlədən Çin imperiyalarında isə siyahıyaalma nisbətən daha davamlı və sistemli idi; ev təsərrüfatları üzrə aparılan qeydiyyat həm vergi, həm də məcburi əmək və hərbi xidmət üçün əsas baza rolunu oynayırdı. Bununla belə, Orta əsrlərdə aparılan bütün bu siyahıyaalmalar müasir mənada ümumi və bərabər əhali sayımı deyildi. Onlar əsasən dövlətin və ya feodal hakimiyyətin maraqlarına uyğun olaraq seçici şəkildə aparılır, sosial strukturun yalnız iqtisadi

və hüquqi baxımdan "əhəmiyyətli" hissələrini əhatə edirdi. Bu səbəbdən Orta əsr siyahıyaalınması daha çox idarəetmə və nəzarət aləti kimi çıxış edir, cəmiyyətin bütöv demoqrafik mənzərəsini yaratmaq iddiası daşımırdı.

İntibah dövründə əhalinin siyahıyaalınması orta əsr praktikasından tədricən uzaqlaşaraq daha rasional və dünyəvi idarəetmə məntiqinə uyğunlaşmağa başladı. Bu mərhələdə siyahıyaalma artıq yalnız feodal öhdəlikləri ilə deyil, şəhər idarəçiliyi, iqtisadi planlaşdırma və ictimai nizamın qorunması ilə əlaqələndirilirdi. Xüsusilə İtaliya şəhər-dövlətlərində, məsələn Florensiya və Venesiyada əhali və ev təsərrüfatları haqqında müntəzəm qeydiyyatlar aparılırdı. Bu siyahılar vergi tutumunun müəyyənləşdirilməsi, şəhər müdafiəsinin təşkili və ictimai asayişin təmin edilməsi üçün istifadə olunurdu. Eyni zamanda Katolik Kilsəsi də bu dövrdə mühüm rol oynayırdı: kilsə reyestrləri vasitəsilə vəftiz, nikah və dəfn məlumatları sistemli şəkildə toplanırdı ki, bu da faktiki olaraq proto-demoqrafik məlumat bazası yaradırdı [10]. Beləliklə, intibah dövründə siyahıyaalma hələ tam dövlət miqyaslı olmasa da, müasir statistikanın intellektual və inzibati əsaslarını formalaşdırmağa başlayırdı.

Yeni dövrdə, xüsusilə XVII–XVIII əsrlərdə isə mərkəzləşmiş milli dövlətlərin formalaşması ilə əhalinin siyahıyaalınması daha geniş miqyas və institusional xarakter qazandı. Bu mərhələdə siyahıyaalma dövlətin suverenlik alətlərindən birinə çevrildi və əhali artıq idarə olunmalı bir resurs kimi qəbul edilirdi. İsveç bu sahədə öncül nümunələrdən biri hesab olunur: XVII əsrin ortalarından etibarən kilsə reyestrləri dövlət nəzarətinə alınmış və əhali haqqında müntəzəm, müqayisəolunan məlumatlar toplanmağa başlanmışdır. Oxşar proseslər Fransa və Prussiyada da müşahidə edilirdi; burada siyahıyaalma vergi islahatları, hərbi çağırış sistemləri və inzibati bölgülərin optimallaşdırılması məqsədləri ilə aparılırdı. Bu dövrdə "siyasi aritmetika" adlanan yanaşma formalaşmış, əhali rəqəmləri dövlət gücünün ölçülə bilən göstəricisi kimi dəyərləndirilmişdir [7].

XVIII əsrin sonu və XIX əsrin əvvəllərində isə müasir mənada ümumi əhali siyahıyaalmasına keçid baş verdi. Bu mərhələdə siyahıyaalma artıq selektiv deyil, bütün əhalini əhatə etməyi hədəfləyən, hüquqi və metodoloji çərçivəyə malik bir dövlət fəaliyyəti kimi təşkil olunurdu. ABŞ 1790-cı ildə Konstitusiyaya əsaslanan ilk ümummilli əhali siyahıyaalmasını həyata keçirdi və bu siyahıyaalma siyasi təmsilçilik, vergi bölgüsü və federal idarəetmənin təşkili ilə birbaşa əlaqələndirildi. Eyni zamanda Böyük Britaniya və Fransa kimi Avropa dövlətləri də XIX əsrdə müntəzəm siyahıyaalma praktikasını institusional normaya çevirdilər. Bu mərhələdə əhalinin siyahıyaalınması artıq sadəcə idarəetmə ehtiyacından doğan bir mexanizm deyil, cəmiyyətin sosial strukturunu anlamağa yönəlmiş elmi-statistik fəaliyyət kimi qəbul olunmağa başladı və müasir demoqrafiya elminin əsas dayaqlarından birinə çevrildi.

XX əsrdə əhalinin siyahıyaalınmasına yanaşma mahiyyət etibarilə köklü şəkildə dəyişdi və bu proses tədricən inzibati nəzarət alətindən elmi-statistik və sosial planlaşdırma mexanizminə çevrildi. Əgər əvvəlki dövrlərdə siyahıyaalma əsasən vergi, hərbi çağırış və idarəetmə məqsədlərinə xidmət edirdisə, XX əsrdə sosial dövlət anlayışının formalaşması ilə əhali məlumatları rifah siyasətinin, sosial bərabərliyin və inkişaf strategiyalarının əsas empirik bazasına çevrildi. Bu dövrdə siyahıyaalma artıq sadəcə "neçə nəfər var?" sualına cavab vermirdi; əhalinin yaşayış şəraiti, təhsil səviyyəsi, məşğulluq strukturu, ailə formaları, miqrasiya təcrübələri və sosial hərəkətlilik kimi çoxölçülü göstəriciləri əhatə etməyə başladı. Beləliklə, əhali siyahıyaalması cəmiyyətin strukturunu "oxumaq" üçün istifadə olunan sistemli sosial bilik mənbəyi statusu qazandı.

XX əsrin əvvəllərindən etibarən siyahıyaalmanın metodoloji əsasları da standartlaşdırılmağa başladı. Xüsusilə beynəlxalq səviyyədə müqayisə edilə bilən məlumatlara ehtiyac yarandıqca, anlayışların, kateqoriyaların və ölçmə vahidlərinin eyniləşdirilməsi gündəmə gəldi. Bu prosesdə Birləşmiş Millətlər Təşkilatı mühüm rol oynadı; təşkilat XX əsrin ortalarından etibarən əhali və mənzil siyahıyaalmaları üçün metodoloji tövsiyələr hazırladı. Bu tövsiyələr siyahıyaalmanın dövriliyini (adətən 10 ildən bir), referens tarix prinsipini, məxfilik qaydalarını və əsas dəyişənlərin siyahısını müəyyənləşdirdi [12]. Bunun nəticəsində siyahıyaalma təkcə milli ehtiyaclara cavab verən fəaliyyət deyil, qlobal statistik sistemin bir hissəsinə çevrildi və demoqrafik məlumatlar beynəlxalq inkişaf göstəricilərinin əsas komponenti oldu.

XX əsrdə ortaya çıxan mühüm yeniliklərdən biri də klassik "tam sayım" yanaşmasının tədricən alternativ metodlarla tamamlanması oldu. Əhali artımı və urbanizasiyanın sürətlənməsi bütün əhalini

eyni anda saymağın həm maliyyə, həm də təşkilati baxımdan çətinliyini artırdı [3]. Bu kontekstdə seçmə müşahidə (*sample survey*) metodu inkişaf etdi və siyahıyaalma nəticələrini dərinləşdirmək üçün istifadə olunmağa başladı. Tam siyahıyaalma əsas struktur göstəricilərini təqdim edir, seçmə sorğular isə daha detallı sosial və iqtisadi məlumatlar toplamaq imkanı yaradırdı. Bundan əlavə, inzibati reyestrlərə əsaslanan yanaşmalar kimi əhalinin vergi, sosial təminat, qeydiyyat və təhsil sistemləri vasitəsilə izlənilməsi bəzi ölkələrdə siyahıyaalmanın alternativi və ya tamamlayıcısı kimi tətbiq edilməyə başladı.

Texnoloji inkişaf da XX əsrdə siyahıyaalma metodlarının transformasiyasında həlledici rol oynadı. Əsrin ortalarından etibarən məlumatların mexaniki və sonradan elektron emalı siyahıyaalma prosesini həm sürətləndirdi, həm də məlumatların dəqiqliyini artırdı. Kompüterlərin tətbiqi böyük həcmli məlumatların emalını mümkün etdi, statistik səhvlərin azaldılmasına və mürəkkəb dəyişənlər arasında əlaqələrin qurulmasına şərait yaratdı. Eyni zamanda coğrafi informasiya sistemləri (GIS) və xəritələşdirmə metodları siyahıyaalma məlumatlarının məkan üzrə təhlilinə imkan verdi. Bu, sosial bərabərsizliklərin, regional inkişaf fərqlərinin və urban-rural bölgünün daha dəqiq şəkildə öyrənilməsinə yol açdı.

Müasir dövrdə əhalinin siyahıyaalınmasının mövcud vəziyyəti: yeni yanaşma. XX əsrin sonuna doğru əhalinin siyahıyaalınmasına yanaşma normativ və etik baxımdan da yenidən formalaşdı. Fərdi məlumatların qorunması, könüllü iştirak prinsipi və etnik, dini və dil göstəricilərinin toplanmasında həssaslıq əsas müzakirə mövzularına çevrildi. Siyahıyaalma artıq sadəcə dövlətin "sayma" aktı kimi deyil, vətəndaş-dövlət münasibətlərinin bir elementi kimi dərk olunmağa başladı. Bu mərhələdə siyahıyaalma cəmiyyətin özünü necə təsvir etdiyini, hansı identiklikləri rəsmi şəkildə tanıdığını və sosial reallığı hansı kateqoriyalarla ölçdüyünü əks etdirən institusional praktika kimi formalaşdı.

XXI əsrdə əhalinin siyahıyaalınması köklü şəkildə rəqəmsallaşmış və klassik "qapı-qapı sayım" modelindən uzaqlaşmağa başlamışdır. Bu dövrdə əsas tendensiya siyahıyaalmanın texnoloji infrastruktur üzərində qurulmasıdır: onlayn sorğu formaları, elektron anketlər, planşet və mobil cihazlar vasitəsilə məlumat toplanması bir çox ölkədə standart praktikaya çevrilmişdir. Rəqəmsallaşma həm məlumat toplama prosesini sürətləndirir, həm də səhvlərin, təkrarların və məlumat itkisinin qarşısını almağa imkan verir. Eyni zamanda, XXI əsrdə siyahıyaalma daha çox "real vaxta yaxın" məlumat istehsalına yönəlmişdir; yəni dövlətlər təkcə on ildə bir dəfə aparılan böyük sayımla kifayətlənmir, əhali haqqında məlumatları daimi olaraq yeniləməyə çalışırlar. Bu, sürətli urbanizasiya, intensiv miqrasiya və sosial strukturdakı çevik dəyişikliklər fonunda əhalini statik deyil, dinamik bir proses kimi anlama ehtiyacından irəli gəlir.

Bu mərhələdə ortaya çıxan ən mühüm yanaşmalardan biri reyestr əsaslı siyahıyaalma modelidir. Xüsusilə Skandinaviya ölkələrində əhali haqqında məlumatlar ayrıca siyahıyaalma kampaniyası olmadan, mövcud inzibati reyestrlər (əhali qeydiyyatı, vergi bazaları, sosial təminat, təhsil və səhiyyə sistemləri) üzərindən inteqrasiya edilərək formalaşdırılır. Bu yanaşma siyahıyaalmanın maliyyətini kəskin şəkildə azaldır və məlumatların daha tez-tez yenilənməsinə şərait yaradır. Paralel olaraq, klassik tam sayım modeli ilə seçmə sorğuların və inzibati məlumatların birləşdirildiyi hibrid modellər geniş yayılmağa başlamışdır. Bu modellərdə əsas demoqrafik göstəricilər reyestrdən əldə edilir, sosial və mədəni göstəricilər isə xüsusi sorğular vasitəsilə tamamlanır. Bu, həm də siyahıyaalmanın elmi keyfiyyətini artıraraq onu sosial tədqiqatlarla daha sıx əlaqələndirir.

Müasir dövrdə məlumatların məxfiliyi, fərdi identikliklərin qorunması və dövlətin "həddən artıq məlumat toplayan aktor"a çevrilməsinin qarşısının alınması əsas müzakirə mövzularındandır. Bu kontekstdə Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq qurumlar siyahıyaalma məlumatlarının anonimləşdirilməsi, könüllülük prinsipi və həssas kateqoriyalar üzrə (etnik mənsubiyyət, dini baxışlar, dil, miqrasiya statusu və s.) məlumat toplanmasında ehtiyatlı yanaşmalar tövsiyə edirlər [12]. Bu da öz növbəsində siyahıyaalmanı müasir dövlətin cəmiyyəti necə gördüyünü və ölçdüyünü göstərən ən vacib bilik mexanizmlərindən birinə çevirir.

Əhalinin müasir formada siyahıyaalınması əlverişli demoqrafik şəraitin formalaşdırılmasında dolayı deyil, birbaşa strukturlaşdırıcı rol oynayır, çünki demoqrafik siyasət intuitiv deyil, məlumat əsaslı qərarlar tələb edir. Doğum səviyyəsi, ölüm göstəriciləri, yaş strukturu, miqrasiya balansı və ailə formaları kimi əsas demoqrafik dəyişənlər yalnız sistemli və davamlı məlumat istehsalı sayəsində düzgün oxuna bilər. Siyahıyaalma bu mənada dövlətə "harada problem var?" sualından əvvəl "problem

hansı ölçüdədir və kimləri əhatə edir?" sualına cavab verir. Əlverişli demoqrafik şərait dedikdə yalnız əhali artımı deyil, eyni zamanda yaşlanmanın idarə olunması, aktiv əmək qabiliyyətli əhalinin qorunması, regional demoqrafik balans və nəsillərarası davamlılıq nəzərdə tutulur. Bütün bu komponentlər isə dəqiq və təkrarlanan siyahıyaalma məlumatları olmadan planlaşdırıla bilməz.

Birinci empirik nümunə kimi İsveç göstərilə bilər. İsveçdə reyestr əsaslı əhali siyahıyaalması nəticəsində yaş strukturu, qadınların doğum davranışları və miqrant ailələrin demoqrafik profili yüksək dəqiqliklə izlənilir. Bu da öz növbəsində əhalinin yaş strukturu, ailə tipləri, qadınların reproduktiv davranışları və miqrant ailələrin sosial-demoqrafik xüsusiyyətlərini son dərəcə detallı və davamlı şəkildə izləməyə imkan verir. Bu sistem klassik onillik siyahıyaalmalardan fərqli olaraq, əhalini statik deyil, dinamik bir proses kimi müşahidə etməyə şərait yaradır; yəni fərdin həyat trayektoriyası zaman içində izlənilir. Məsələn, hansı yaş qruplarında doğumların azaldığı, ana olma yaşının necə dəyişdiyi, miqrant qadınlarla yerli qadınlar arasında doğum davranışlarının hansı nöqtələrdə fərqləndiyi konkret empirik göstəricilər əsasında ortaya qoyulur. Eyni zamanda məşğulluq reyestri ilə əhali məlumatlarının inteqrasiyası qadınların əmək bazarına daxilolma vaxtı ilə ana olma qərarları arasındakı əlaqəni ölçməyə imkan verir. Bu səviyyədə detallı məlumat istehsalı dövlətə demoqrafik prosesləri ümumi tendensiyalar şəklində deyil, sosial qruplar, regionlar və həyat mərhələləri üzrə oxumaq imkanı verir. Məhz bu empirik əsas üzərində İsveç dövləti uşaq baxımı xidmətlərini, valideyn məzuniyyəti sistemini və qadın məşğulluğunu bir-birindən ayrı sahələr kimi deyil, vahid demoqrafik strategiyanın komponentləri kimi formalaşdırmışdır. Siyahıyaalma və reyestr məlumatları göstərirdi ki, qadınların əmək bazarından uzun müddət kənarda qalması doğum qərarlarını gecikdirir və ikinci və üçüncü uşaq ehtimalını azaldır. Buna cavab olaraq dövlət həm qadınlar, həm də kişilər üçün çevik və uzunmüddətli valideyn məzuniyyəti mexanizmləri tətbiq etmiş, eyni zamanda yüksək keyfiyyətli və əlçatan uşaq baxımı infrastrukturunu genişləndirmişdir. Nəticədə qadınlar üçün ana olmaqla peşəkar karyera arasında kəskin seçim dilemması zəiflədilmişdir. Bu siyasətin effektivliyi reyestr məlumatları vasitəsilə davamlı şəkildə monitorinq olunur və potensial risklər (məsələn, müəyyən sosial qruplarda və ya miqrant ailələrdə doğum səviyyəsinin sürətlə enməsi) erkən mərhələdə aşkar edilərək hədəfli müdaxilələrlə qarşılanır. Bu baxımdan, İsveç nümunəsi göstərir ki, əhali siyahıyaalması sadəcə vəziyyəti təsvir edən statistika deyil, demoqrafik riskləri qabaqcadan görməyə və preventiv sosial siyasət qurmağa imkan verən strateji idarəetmə alətidir.

İkinci mühüm nümunə Cənubi Koreya kontekstində müşahidə olunur. Cənubi Koreyada XX əsrin sonundan etibarən aparılan yüksək keyfiyyətli siyahıyaalma və seçmə sorğular doğum səviyyəsinin kəskin enişini çox erkən mərhələdə üzə çıxarmışdı. Siyahıyaalma nəticələri göstərirdi ki, doğum səviyyəsindəki kəskin eniş cəmiyyətin bütün təbəqələrinə eyni dərəcədə aid deyil, əksinə əsasən böyük şəhərlərdə yaşayan, ali təhsilli, əmək bazarında aktiv iştirak edən qadınlar arasında cəmləşir; yəni problem mədəni "uşaq istəməmək"dən çox struktur məhdudiyyətlərlə bağlıdır. Məlumatlar qadınların orta ana olma yaşının sürətlə yüksəldiyini, evlilik yaşının gecikdiyini, mənzil xərclərinin ailə qurma qərarlarını təxirə saldığını və uzun iş saatlarının uşaq sahibi olma ehtimalını kəskin şəkildə azaltdığını açıq şəkildə ortaya qoyurdu. Bu empirik xəritə dövlətə əvvəlki mərhələdə tətbiq edilən, bütün əhaliyə eyni anda yönəlmiş simvolik maliyyə təşviqlərinin niyə nəticə vermədiyini göstərdi və siyasətin istiqamətinin dəyişdirilməsini zəruri etmişdir. Nəticədə, dövlət klassik "ümumi doğum təşviqi" yanaşmasından imtina edərək, şəhərli və yüksək təhsilli qadınların konkret struktur problemlərini hədəfləyən siyasətə keçdi: gənc ailələr üçün mənzil dəstəyi proqramları genişləndirildi, uşaq baxımı xidmətlərinin əlçatanlığı artırıldı, iş yerlərində çevik iş rejimləri və valideyn məzuniyyəti mexanizmləri normativ səviyyədə təşviq edildi. Bu siyasətin təsiri siyahıyaalma və sorğu məlumatları vasitəsilə davamlı monitorinq olunduğu üçün hansı tədbirlərin real davranış dəyişiklikləri yaratdığı, hansılarının isə formal qaldığı aydın şəkildə izlənə bildi. Hərçənd bu müdaxilələr doğum böhranını tam həll etməyib və Cənubi Koreya hələ də dünyada ən aşağı doğum göstəricilərindən birinə malikdir, lakin dövlətin problemi düzgün oxuması və resursları ümumi yox, konkret risk qruplarına yönəltməsi məhz siyahıyaalma məlumatlarının verdiyi detallı demoqrafik xəritə sayəsində mümkün olmuşdur [8].

Digər empirik nümunə kimi Fransa göstərilə bilər. Fransada əhali siyahıyaalması və daimi demoqrafik müşahidə sistemi ailə strukturlarındakı dəyişiklikləri (nikahsız birliklər, tək valideynli ailələr, çoxuşaqlı ailələrin sosial profili) detallı şəkildə ortaya qoymuşdur. Əhali siyahıyaalması və onu

tamamlayan daimi demoqrafik müşahidə mexanizmləri ailə strukturlarında baş verən transformasiyaları uzunmüddətli və çoxölçülü şəkildə izləməyə imkan vermişdir və bu proses klassik ailə anlayışının cəmiyyətdə artıq dominant model olmadığını empirik olaraq sübut etmişdir. Siyahıyaalma məlumatları nikahsız birliklərin geniş yayıldığını, tək valideynli ailələrin sosial-iqtisadi risklərə daha açıq olduğunu, eyni zamanda çoxuşaqlı ailələrin müəyyən sosial qruplarda cəmləşdiyini konkret göstəricilər əsasında ortaya qoymuşdur. Bu məlumatlar ailə davranışlarının hüquqi statusdan çox sosial və iqtisadi şəraitlə bağlı olduğunu göstərmiş, "evlilik = ailə sabitliyi" kimi normativ fərziyyələrin reallığı əks etdirmədiyini açıq şəkildə ortaya çıxarmışdır. Dövlət məhz bu empirik oxunuşa əsaslanaraq ailə siyasətini tək tipli model üzərindən qurmaqdan imtina etmiş və müxtəlif ailə formalarını (nikahsız birliklərdə yaşayan cütlükləri, tək valideynləri, yenidən qurulmuş ailələri və çoxuşaqlı ailələri) eyni hüquqi və sosial çərçivədə dəstəkləyən çevik mexanizmlər formalaşdırmışdır. Məsələn, ailə müavinətləri nikah statusuna deyil, uşağın mövcudluğuna əsaslandırılmış, uşaq baxımı xidmətləri ailə tipindən asılı olmayaraq əlçatan edilmiş, vergi güzəştləri və sosial transferlər ailənin real ehtiyaclarına uyğun diferensiallaşdırılmışdır. Bu siyasətin effektivliyi siyahıyaalma və davamlı müşahidə məlumatları vasitəsilə monitorinq olunduğu üçün dövlət hansı ailə formalarının daha çox demoqrafik davamlılıq yaratdığını, hansılarının isə əlavə sosial risklər daşıdığını konkret olaraq görə bilmişdir. Nəticədə Fransa Avropada doğum səviyyəsini nisbətən yüksək saxlayan azsaylı ölkələrdən birinə çevrilmişdir və bu göstərici mədəni "uşaqsevərlik"lə deyil, ailə davranışlarının empirik reallığına uyğun qurulmuş sosial siyasətlə izah olunur. Yəni əlverişli demoqrafik şərait normativ ailə ideallarının dövlət tərəfindən zorla təşviqi ilə deyil, siyahıyaalmanın verdiyi real sosial mənzərənin düzgün oxunması və bu oxunuş əsasında çevik, inklüziv və məlumat əsaslı ailə siyasətinin qurulması ilə təmin olunur.

Əlavə olaraq, postsovet məkanında fərqlənən Estoniya təcrübəsini qeyd etmək olar. Estoniyada rəqəmsal reyestrlərə əsaslanan siyahıyaalma miqrasiya axınlarını, ölkəni tərk edən gənc əhalini və geri dönüş tendensiyalarını dəqiq izləməyə imkan vermişdir. Bu ölkədə rəqəmsal reyestrlərə əsaslanan əhali siyahıyaalması miqrasiya proseslərini klassik statistik müşahidədən fərqli olaraq davamlı və fərd səviyyəsində izləməyə imkan vermişdir və bu, ölkənin demoqrafik risklərini erkən mərhələdə aşkar etməsində həlledici rol oynamışdır. Rəqəmsal əhali, təhsil, vergi və əmək bazarı reyestrlərinin inteqrasiyası nəticəsində dövlət hansı yaş qruplarının ölkəni tərk etdiyini, miqrasiyanın əsasən hansı təhsil və peşə kateqoriyalarında cəmləşdiyini, gənclərin nə vaxt və hansı mərhələdə geri dönmək ehtimalının yarandığını konkret empirik göstəricilər əsasında görə bilmişdir. Məlumatlar açıq şəkildə göstərirdi ki, problem ümumi miqrasiya deyil, əsasən ali təhsilli gənclərin və yüksək ixtisaslı mütəxəssislərin uzunmüddətli xaricə çıxışı ilə bağlıdır və bu proses davam edərsə əmək bazarında struktur boşluqlar yaranacaqdır. Bu demoqrafik xəritə əsasında Estoniya dövləti diasporu passiv "itirilmiş əhali" kimi deyil, potensial geri dönüş və bilik transferi mənbəyi kimi dəyərləndirən siyasət formalaşdırmışdır: xaricdə yaşayan estoniyalılar üçün geri dönüş proqramları, vergi və sosial təminat güzəştləri, ailə ilə qayıdanlar üçün uşaq baxımı və təhsil imkanlarının tanınması kimi mexanizmlər tətbiq edilmişdir. Eyni zamanda rəqəmsal dövlət infrastrukturu vasitəsilə ölkədən kənarda yaşayan şəxslərin Estoniya ilə iqtisadi və institusional əlaqəsini qoruyan modellər olan məsafədən işləmə, elektron rezidentlik və startap ekosisteminə çıxış inkişaf etdirilmişdir. Paralel olaraq, siyahıyaalma və reyestr məlumatları yüksək ixtisaslı xarici mütəxəssislərin hansı sahələrdə çatışmadığını göstərdiyi üçün miqrasiya siyasəti ümumi deyil, selektiv və əmək bazarı yönümlü şəkildə qurulmuşdur. Nəticədə, Estoniya əhali itkisini tam dayandıra bilməsə də, onun ən destruktiv təsirlərini yumşalda bilmiş, gənc və aktiv əmək qabiliyyətli əhalinin müəyyən hissəsini geri qaytarmaqla və yeni ixtisaslı miqrantları cəlb etməklə demoqrafik kollaps riskini idarəolunan səviyyəyə endirmişdir. Buradan görürük ki, rəqəmsal reyestrlərə əsaslanan siyahıyaalma miqrasiyanı sadəcə statistika kimi deyil, strateji planlaşdırma obyekti kimi oxumağa imkan verir və əlverişli demoqrafik şəraitin qorunmasında preventiv, hədəfli və çevik dövlət siyasətinin əsas empirik dayağına çevrilir.

Nəticə. Tədqiqatımız əsasında deyə bilərik ki, müasir siyahıyaalma sistemləri əlverişli demoqrafik şəraitin yaradılmasının deyil, onun elmi əsaslarla idarə olunmasının əsas şərtidir. Demoqrafiya öz-özünə yaxşı və ya pis istiqamətə getmir; onu düzgün oxuyan və vaxtında müdaxilə edən dövlətlər demoqrafik riskləri yumşalda bilir. Siyahıyaalma bu mənada sadəcə statistik tədbir deyil, strateji sosial

idarəetmə mexanizmidir. Empirik nümunələr açıq şəkildə göstərir ki, siyahıyaalma nə qədər dəqiq, davamlı və inteqrativdirsə, demoqrafik siyasət də bir o qədər hədəfli, effektiv və real olur.

ƏDƏBİYYAT

1. Adamich, T. The Sum of the People: How the Census has Shaped Nations, from the Ancient World to the Modern Age. GODORT, Vol 48, No 3 (2020), 10-12.
2. Bagnal, R. S. The Beginnings of the Roman Census in Egypt. 1991. URL: https://grbs.library.duke.edu/index.php/grbs/article/download/3811/5657/15553 [04.01.2026].
3. Census. Encyclopedia Britannica. Nov. 26, 2025. URL: https://www.britannica.com/science/census [25.12.2025].
4. Census-taking in the ancient world. Office for National Statistics. 18 January 2016. URL: https://www.ons.gov.uk/census/2011census/howourcensusworks/aboutcensuses/censushistory/censustakingintheancientworld [04.01.2026].
5. Champkin, J. Ancient censuses. Great moments in statistics. Significance, December 2013, 21-28.
6.Christopher, A. J. The debate on the future of the population census: Relevance for South Africa? Development Southern Africa, 2016, 33(5), 600-612.
7.Hoppit, J. Political Arithmetic in Eighteenth-Century England. The Economic History Review, 1996, 49(3), 516-540.
8. Lee, B. S., Klein, J., Wohar, M., & Kim, S. Factors delaying marriage in Korea: an analysis of the Korean population census data for 1990–2010. Asian Population Studies, 2021, 17(1), 71-93.
9. Muchsin, M. A., & Manan, A. Historical development of tax during the early Islamic period: Jizyah and kharaj. Journal of Al-Tamaddun, 2019, 14(2), 1-7.
10.Poos, L. R. The Historical Demography of Renaissance Europe: Recent Research and Current Issues. Renaissance Quarterly, 1989, 42(4), 794-811.
11.The Domesday Book. BBC History. 2014. URL: https://www.bbc.co.uk/history/british/normans/doomsday_01.shtml [07.01.2026].
12.United Nations. Population census methods. Lake Success, New York, November 1949. URL: https://digitallibrary.un.org/record/3926569?v=pdf [18.01.2026].
13.United Nations. Population census methods. Lake Success, New York, November 1949. URL: https://digitallibrary.un.org/record/3926569?v=pdf [15.01.2026].
14. Zhang, Q., He, C., & Liu, Z. Studying urban development and change in the contiguous United States using two scaled measures derived from nighttime lights data and population census. GIScience & Remote Sensing, 2014, 51(1), 63–82.

УЛЬВИЯ ХАГВЕРДИ
Доцент кафедры Политологии и политического управления
Академии Государственного Управления
при Президенте Азербайджанской Республик,
доктор философии по политическим наукам

ПРОБЛЕМА ПЕРЕПИСИ НАСЕЛЕНИЯ: ИСТОРИЯ И СОВРЕМЕННОСТЬ

В исследовании перепись населения рассматривается как механизм системного, надежного и сопоставимого производства знаний государства о населении и обобщается ее роль в формировании и управлении благоприятной демографической ситуацией в теоретической и эмпирической плоскостях. В статье перепись представлена не только как процесс определения численности населения, но и как регистрация основных социально-демографических параметров (возрастно-половой структуры, семейного положения, показателей образования и занятости, профессионального состава, языковых компетенций, форм расселения и миграционного статуса) на основе установленных методологических принципов. В заключение доказывается,

что перепись населения не является механизмом, автоматически создающим благоприятную демографическую среду, а представляет собой стратегический инструмент социального управления, позволяющий научно обоснованно интерпретировать, прогнозировать и регулировать демографические процессы.

Ключевые слова: перепись населения, демографическая политика, социальная статистика, регистро-ориентированный подход, демографические риски.

ULVIYYA HAGVERDI
Department of Political Science and Political Administration,
the Academy of Public Administration under the President of Azerbaijan Republic,
PhD in Political Science, Associate professor

THE PROBLEM OF POPULATION CENSUS: HISTORY AND MODERNITY

The study examines population census as a mechanism for the systematic, reliable, and comparable production of state knowledge about the population and synthesizes its role in shaping and managing a favorable demographic environment from both theoretical and empirical perspectives. The article conceptualizes the census not merely as the determination of population size but as the registration of key socio-demographic parameters - such as age-sex structure, marital status, education and employment indicators, occupational composition, language competencies, settlement patterns, and migration status - based on established methodological principles. Ultimately, the article argues that population census is not a mechanism that automatically creates favorable demographic conditions, but rather a strategic instrument of social governance that enables scientifically grounded interpretation, forecasting, and management of demographic processes.

Keywords: population census, demographic policy, social statistics, register-based approach, demographic risks.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 23 yanvar 2026-cı il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: s.e.f.d. Fəridə Əlirzayeva, s.e.d. Adil Mirabdullayev.